# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun yaradılması, “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun tərkibi, səlahiyyətləri və fəaliyyəti ilə bağlı məsələlər haqqında Əsasnamə”nin təsdiq edilməsi və “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun yaradılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 sentyabr tarixli 408 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında” Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 661-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında dəyişiklik edilməsi, “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1999-cu il 4 avqust tarixli 171 nömrəli Fərmanının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 yanvar tarixli 2001 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin və 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupu yaradılsın.

2. “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun tərkibi, səlahiyyətləri və fəaliyyəti ilə bağlı məsələlər haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı”na uyğun olaraq kiçik və orta biznes evlərində xidmətlər göstərən dövlət orqanları (qurumları) Koordinasiya Qrupunun tərkibinin formalaşdırılması ilə əlaqədar Koordinasiya Qrupunda onları təmsil edəcək şəxslər barədə müvafiq məlumatları Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə təqdim etsinlər.

4. “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun yaradılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 sentyabr tarixli 408 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1936 (Cild I) ləğv edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 13 yanvar 2024-cü il

№ 21

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 13 yanvar
tarixli 21 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun tərkibi, səlahiyyətləri və fəaliyyəti ilə bağlı məsələlər haqqında

## ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (bundan sonra – Agentlik) yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun (bundan sonra – Koordinasiya Qrupu) səlahiyyətlərini, tərkibini və fəaliyyətinin təşkili əsaslarını tənzimləyir.

1.2. Koordinasiya Qrupu mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi, kiçik və orta biznes evlərində (bundan sonra – KOB evləri) Koordinasiya Qrupunda təmsil olun dövlət orqanları (qurumları) ilə Agentlik arasında səmərəli əlaqələndirmənin və operativliyin təmin edilməsi məqsədilə Agentlik yanında yaradılmış dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət ictimai əsaslarla daimi fəaliyyət göstərən kollegial orqandır.

1.3. Koordinasiya Qrupu öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarlarını həmçinin sərəncamlarını rəhbər tutur.

1.4. Koordinasiya Qrupu öz fəaliyyətini mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər və dövlət mülkiyyətində olan

və ya səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, habelə mikro, kiçik və orta sahibkarlıq subyektləri və qeyri-kommersiya təşkilatları ilə əlaqəli həyata keçirir.

## 2. Koordinasiya Qrupunun fəaliyyət istiqamətləri

2.1. Koordinasiya Qrupunun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Koordinasiya Qrupunda təmsil olunmuş dövlət orqanları (qurumları) arasında mikro, kiçik və orta sahibkarlığın inkişafı siyasətini əlaqələndirmək;

2.1.2. mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.3. Koordinasiya Qrupunda təmsil olunan dövlət orqanları (qurumları) ilə Agentlik arasında səmərəli əlaqələndirməni həyata keçirmək;

2.1.4. mikro, kiçik və orta sahibkarlığın inkişafı üçün prioritet sahələrin, o cümlədən mikro, kiçik və orta sahibkarlığa dəstək tədbirlərinin müəyyən edilməsində iştirak etmək;

2.1.5. Koordinasiya Qrupunda təmsil olunan dövlət orqanlarının (qurumlarının) mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərdikləri xidmətlərin təkmilləşdirilməsi ilə bağlı müzakirələrdə iştirak etmək;

2.1.6. mikro, kiçik və orta sahibkarlığa dəstək tədbirlərinin həyata keçirilməsinə dair təşəbbüslər irəli sürmək.

## 3. Koordinasiya Qrupunun vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Koordinasiya Qrupunun aşağıdakı vəzifələri vardır:

3.1.1. KOB evlərində təmsil olunan hər hansı dövlət orqanının (qurumunun) nümayəndəsinin hərəkətindən və ya hərəkətsizliyindən sahibkarlıq subyektlərindən daxil olmuş şikayətləri Koordinasiya Qrupunun iclaslarında operativ qaydada müzakirə etmək və həllinə dair müvafiq dövlət orqanına (qurumuna) tövsiyələr hazırlayaraq təqdim etmək, həmin dövlət orqanının (qurumunun) bu tövsiyələrə əməl etmədiyi təqdirdə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məsələnin həlli ilə əlaqədar müraciət ünvanlamaq;

3.1.2. mikro, kiçik və orta sahibkarlıq sahəsində mövcud olan inzibati maneələri aradan qaldırmaq məqsədilə Koordinasiya

Qrupunda təmsil olunmuş dövlət orqanlarının (qurumlarının) mikro, kiçik və orta sahibkarlıq subyektlərinin göstərdikləri xidmətlərə əlçatanlığın təmin edilməsi, o cümlədən xidmətin hər hansı prosedurunun sadələşdirilməsi və ya ləğvi ilə əlaqədar müzakirələrdə iştirak etmək və təkliflər irəli sürmək;

3.1.3. mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində beynəlxalq təcrübənin təhlili və tətbiqinin qiymətləndirilməsi istiqamətində müzakirələrdə iştirak etmək və təkliflər irəli sürmək;

3.1.4. mikro, kiçik və orta sahibkarlıq sahəsi ilə bağlı qüvvədə olan normativ hüquqi aktların mikro, kiçik və orta sahibkarlığın cari inkişafına təsirini müzakirə etmək, habelə hüquqi aktların təhlili aparılarkən mövcud boşluqların, ziddiyyətlərin və mikro, kiçik və orta sahibkarlığa mənfi təsir göstərən digər amillərin aradan qaldırılmasına dair təkliflər irəli sürmək və aidiyyəti dövlət orqanına (qurumuna) təqdim etmək;

3.1.5. mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi ilə əlaqədar təkliflərlə çıxış etmək.

## 4. Koordinasiya Qrupunun hüquqları

4.1. Koordinasiya Qrupu aşağıdakı hüquqlara malikdir:

4.1.1. Koordinasiya Qrupunun fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan məlumatları "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Koordinasiya Qrupunda təmsil olunan dövlət orqanlarından (qurumlarından) əldə etmək;

4.1.2. Koordinasiya Qrupunda təmsil olunmuş dövlət orqanları (qurumları) tərəfindən hazırlanmaqda olan mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı hüquqi aktların layihələrinin hazırlanmasında və müzakirəsində iştirak etmək, layihələrə dair təkliflər vermək;

4.1.3. öz fəaliyyətini həyata keçirmək məqsədilə daimi və ya müvəqqəti işçi orqanlar (komitələr, komissiyalar, ekspert qrupları, işçi qruplar və s.) yaratmaq;

4.1.4. Koordinasiya Qrupunun gündəliyinə daxil edilmiş məsələlərin həlli üçün elmi təşkilatların, o cümlədən beynəlxalq təşkilatların nümayəndələrini, ayrı-ayrı mütəxəssisləri, ekspertləri və məsləhətçiləri cəlb etmək;

4.1.5. Koordinasiya Qrupunun iclaslarına mikro, kiçik və orta sahibkarlıq subyektlərinin, qeyri-hökumət təşkilatlarının və digər vətəndaş cəmiyyəti institutlarının nümayəndələrini dəvət etmək;

4.1.6. mikro, kiçik və orta sahibkarlıq sahəsində keçirilən konfransların, dəyirmi masaların, görüşlərin və qurultayların hazırlanmasında və keçirilməsində iştirak etmək.

## 5. Koordinasiya Qrupunun tərkibi və fəaliyyətinin təşkili

5.1. Koordinasiya Qrupunun tərkibi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı”na uyğun olaraq KOB evlərində xidmətlər göstərən dövlət orqanlarının (qurumlarının) həmin xidmətlər üzrə cavabdeh olan struktur bölmələrinin rəhbər şəxslərindən ibarətdir.

5.2. Koordinasiya Qrupunun rəhbəri Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavinlərindən biri, Koordinasiya Qrupunun rəhbərinin müavini isə Agentliyin İdarə Heyətinin sədridir.

5.3. Koordinasiya Qrupunun rəhbəri aşağıdakı vəzifələri yerinə yetirir:

5.3.1. Koordinasiya Qrupunun fəaliyyətinin istiqamətlərini müəyyənləşdirir və hər təqvim ili üçün onun fəaliyyət proqramını təsdiq edir;

5.3.2. Koordinasiya Qrupunun fəaliyyəti ilə bağlı zəruri olan qərarları və məktubları, o cümlədən Koordinasiya Qrupunun iclaslarında qəbul edilmiş təklifləri və tövsiyələri imzalayır;

5.3.3. Koordinasiya Qrupunun fəaliyyətinin təşkili ilə bağlı digər işləri həyata keçirir.

5.4. Koordinasiya Qrupunun rəhbəri olmadıqda, onun funksiyalarını Koordinasiya Qrupunun rəhbərinin müavini həyata keçirir.

5.5. Koordinasiya Qrupunun cari fəaliyyətinin təşkili Koordinasiya Qrupunun daimi orqanı hesab edilən Katibliyi tərəfindən həyata keçirilir. Koordinasiya Qrupunun Katibliyinin funksiyalarını Agentliyin müvafiq struktur bölməsi həyata keçirir.

5.6. Koordinasiya Qrupunun Katibliyi aşağıdakı vəzifələri həyata keçirir:

5.6.1. Koordinasiya Qrupunun üzvlərini və Koordinasiya Qrupunun iclasına dəvət edilmiş digər şəxsləri iclasın yeri, tarixi, vaxtı və gündəliyi barədə məlumatlandırır;

5.6.2. Koordinasiya Qrupu tərəfindən yaradılmış daimi və müvəqqəti işçi orqanlarının fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlər görür;

5.6.3. Koordinasiya Qrupunun iclaslarında müzakirə olunan məsələlər barədə məlumatları (əldə edilməsi qanunla məhdudlaşdırılan məlumatlar istisna olmaqla) Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin edir;

5.6.4. Koordinasiya Qrupunun iclaslarına dəvət olunan şəxsləri arayış və məlumat materialları ilə təmin edir və bu kimi digər işləri təşkil edir;

5.6.5. Koordinasiya Qrupunun iclasının gündəliyinin layihəsini hazırlayır;

5.6.6. Koordinasiya Qrupunun qərar, təklif, tövsiyə və məktub layihələrinin hazırlanmasını təşkil edir;

5.6.7. Koordinasiya Qrupunun iclaslarının protokollarını tərtib edir;

5.6.8. Koordinasiya Qrupunun aktlarını (qərarlarını, təkliflərini və tövsiyələri) aidiyyəti üzrə təqdim edir;

5.6.9. Koordinasiya Qrupunun kargüzarlıq işini təşkil edir;

5.6.10. hər təqvim ilinin sonunda Koordinasiya Qrupunun fəaliyyəti barədə illik hesabatı hazırlayır və Koordinasiya Qrupunun rəhbərinə təqdim edir.

5.7. Koordinasiya Qrupunun Katibliyi tərəfindən Koordinasiya Qrupunun fəaliyyəti ilə əlaqədar hazırlanmış hesabat hər təqvim ilinin sonunda Agentlik tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

5.8. Koordinasiya Qrupunun gündəliyinə daxil edilmiş sənədlər adi hallarda 5 (beş) gün, təcili olduqda isə (növbədənkənar iclasın keçirilməsi halında) 2 (iki) gün müddətində Koordinasiya Qrupunun üzvlərinə təqdim edilir və onlara Koordinasiya Qrupunun iclasında baxılır.

5.9. Koordinasiya Qrupunun iclasları aşağıdakı qaydada keçirilir:

5.9.1. Koordinasiya Qrupunun iclasları açıq keçirilir və onun üzvlərindən azı yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır;

5.9.2. Koordinasiya Qrupunun iclasları 6 (altı) ayda bir dəfədən az olmayaraq keçirilir. Növbədənkənar qaydada iclas Agentliyin

təşəbbüsü əsasında və ya Koordinasiya Qrupunun istənilən üzvünün Koordinasiya Qrupunun Katibliyinə göndərdiyi müraciətə əsasən keçirilir;

5.9.3. Koordinasiya Qrupunun gündəliyinə daxil edilmiş məsələlər barədə Koordinasiya Qrupunun rəhbəri, rəhbərin müavini və ya üzvlərindən biri məlumat verir;

5.9.4. Koordinasiya Qrupunun aktları (qərarlar, təkliflər və tövsiyələr) iclasda iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edilir və Koordinasiya Qrupunun rəhbəri tərəfindən imzalanır. Səslər bərabər olduqda, Koordinasiya Qrupunun rəhbərinin səsi həlledici hesab edilir;

5.9.5. Koordinasiya Qrupunun iclaslarında qəbul edilmiş aktlar protokolla rəsmiləşdirilir və Koordinasiya Qrupunun rəhbəri, rəhbərin müavini və Qrupun üzvləri tərəfindən imzalanır.

5.10. Koordinasiya Qrupu təşkilati məsələlər üzrə qərarlar, digər məsələlər üzrə isə təkliflər və tövsiyələr qəbul edir.

5.11. Bu Əsasnamənin 4.1.4-cü və 4.1.5-ci yarımbəndləri ilə Koordinasiya Qrupunun iclaslarına dəvəti nəzərdə tutulmuş şəxslərin yalnız təkliflər vermək və müvafiq məsələlərə dair rəy bildirmək hüquqları vardır.